AZƏRBAYCAN RESPUBLİKASI
BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ
SƏRƏNCAMI

№ 77 «14» 04 2022-ci il

**Binəqədi rayonu ərazisində əhalinin kütləvi toplaşdığı bütün növ xidmət və ticarət obyektlərində baş verə biləcək fövqəladə hal, qəza risklərinin müəyyən edilməsi və çatışmazlıqların aradan qaldırılması işinin təşkili məqsədilə Komissiyanın yaradılması barədə**

"Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin tələbinə əsasən əməyin mühafizəsi və müəssisələrdə baş vermiş bədbəxt hadisələrin tədqiqi məsələlərində müvafiq nəzarət orqanları, həmkarlar ittifaqları təşkilatları ilə və bu sahədə digər səlahiyyətli qurumlarla qarşılıqlı əlaqədə iş qurmaq, bədbəxt hadisələrin baş verməsi səbəblərini araşdırmaq, onların təkrar baş verməsinin qarşısının alınmasına yönəldilən tədbirlər görmək vəzifələri müəyyən edilmişdir.

Son zamanlarda baş vermiş bədbəxt hadisələr Binəqədi rayonu ərazisində fəaliyyət göstərən qeyri-yaşayış obyektlərində baş verə biləcək bədbəxt hadisələrin qarşısının alınması məqsədilə obyektlərdə propan və təbii qazdan istifadə qaydalarına riayət edilmə vəziyyətinin araşdırılması üçün komissiyanın yaradılması lüzumu yaratmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 aprel 2022-ci il tarixli Sərəncamına əsasən əhalinin kütləvi toplaşdığı bütün növ xidmət və ticarət obyektlərində baş verə biləcək fövqəladə hal, qəza risklərinin müəyyən edilməsi, çatışmazlıqların aşkarlanması və aradan qaldırılması işinin təşkilini təmin etmək məqsədilə yoxlamaların başlanması qərara alınmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 aprel 2022-ci il tarixli Sərəncamını və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.8.1-ci və 6.8-ci bəndlərini nəzərə alaraq,

**qərara alıram:**

1. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin, Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyinin və "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin yerli nümayəndəlikləri ilə birlikdə rayon ərazisində insanların kütləvi toplaşdığı aşağıda qeyd olunan bütün növ obyektlərdə yanğın və

texniki təhlükəsizlik qaydalarına düzgün riayət edilməsi ilə bağlı yoxlamaların aparılması təşkil edilsin;

- insanların müvəqqəti yaşayışı üçün nəzərdə tutulmuş binalarda, o cümlədən yataqxanalarda, mehmanxanalarda, sanatoriyalarda, istirahət evlərində, kempinqlərdə, motellərdə, mülkiyyət formasından asılı olmayaraq bütün sosial təyinatlı obyektlərdə, xəstəxanalarda, təhsil müəssisələrində, tamaşa və mədəni-maarif təşkilatlarının binalarında (teatrlar, kinoteatrlar, konsert zalları, muzeylər) və əhaliyə xidmət göstərən bütün ictimai obyektlərdə (ticarət mərkəzləri, kafelər, restoranlar və s.).

2. Yoxlamaların keçirilməsi məqsədilə aşağıdakı tərkibdə Komissiya yaradılsın:

**Komissiyanın sədri:**

| | |
|---|---|
| Məmmədov Leysan Novruz oğlu | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini |

**Komissiyanın üzvləri:**

| | |
|---|---|
| İskəndər Cahangir-zadə | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri |
| Hacıbaba Babayev | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri |
| Azər Kərimov | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Rayon təsərrüfatı şöbəsinin müdiri |
| Yunis Hüseynov | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Hüquq şöbəsinin müdiri |
| Elmin Zamanov | Binəqədi rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin rəisi |

| | |
|---|---|
| Səlcuq Müzəffərli | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının M.Ə.Rəsulzadə qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini |
| Osman Qasımov | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Biləcəri qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini |
| Ramiz Həsənzadə | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Xocəsən qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini |
| Əsəd Məmmədov | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 28 may qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini |
| Əlikram Haqverdiyev | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Binəqədi qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini |
| Zakir Əliyev | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 1 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini |
| Fərdi Ağamalıyev | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 2 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini |
| Müşviq Məmmədov | 1-ci ərazi Dövlət Yanğın Nəzarəti idarəsinin Tikinti normativ şöbəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı |
| Aslan Kərimov | Binəqədi Rayon Polis İdarəsinin İctimai təhlükəsizlik şöbəsinin baş inspektoru, polis kapitanı |
| Teymur Ağazadə | Binəqədi rayon Elektrik Təchizatı və |

Satışı İdarəsinin rəisi

Məhəmmədəli Məmmədov

Biləcəri Elektrik Təchizatı və
Satışı İdarəsinin rəisi

Natiq Qənbərov

Bakı Regional Qazın Satışı
Departamentinin Binəqədi Rayonu üzrə
rəisi

3. Komissiyaya tapşırılsın ki, gün ərzində görülmüş işlər barədə Rayon İcra Hakimiyyəti başçısına məlumat verilsin.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN